Şərq Tərəfdaşlığı regionunda gender məlumatlarında boşluqların aradan qaldırılması: Qadınların ədalət mühakiməsinə çıxışı üçün aktuallıq kəsb edən məlumat toplama təcrübələrinə dair rəhbər prinsiplər



Qadınların ədalət mühakiməsinə çıxışı: Avropa Şurasının gender bərabərliyi və qadınlara qarşı zorakılıq ilə əlaqədar standartlarının həyata keçirilməsi

Anne Laure Humbertin müəllifliyi
və aşağıdakıların yardımı ilə hazırlanıb:
Tamara Buhaiets, Liza Grigoryan
Andrei Iovu, Ekaterine Skhiladze,
Vafa Rustam

Avropa İttifaqı tərəfindən
birgə maliyyələşdirilir

AVROPA İTTİFAQI

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE

Avropa Şurası tərəfindən
birgə maliyyələşdirilir
və icra edilir

Şərq Tərəfdaşlığı regionunda gender məlumatlarında boşluqların aradan qaldırılması: Qadınların ədalət mühakiməsinə çıxışı üçün aktuallıq kəsb edən məlumat toplama təcrübələrinə dair rəhbər prinsiplər

Qadınların ədalət mühakiməsinə çıxışı:
Avropa Şurasının gender bərabərliyi
və qadınlara qarşı zorakılıq ilə əlaqədar
standartlarının həyata keçirilməsi

Anne Laure Humbertin müəllifliyi
və aşağıdakıların yardımı ilə hazırlanıb:
Tamara Buhaiets, Liza Grigoryan
Andrei Iovu, Ekaterine Skhiladze,
Vafa Rustam

Avropa Şurası

Şərq Tərəfdaşlığı regionunda gender məlumatlarında boşluqların aradan qaldırılması: Qadınların ədalət mühakiməsinə çıxışı ilə bağlı məlumatların toplanması təcrübələrinə dair rəhbər prinsiplər

Yaxşı İdarəçilik üçün Tərəfdaşlıq proqramının bir hissəsi olan “Qadınların ədalət mühakiməsinə çıxışı: Avropa Şurasının gender bərabərliyi və qadınlara qarşı zorakılıq əleyhinə mübarizə standartlarının həyata keçirilməsi” təşəbbüsü çərçivəsində hazırlanmışdır.

Bu Rəhbər prinsiplər Avropa İttifaqı və Avropa Şurasının maliyyə dəstəyi ilə hazırlanmışdır. Onun məzmununa görə yalnız müəllif(lər) cavabdehlik daşıyır. Burada ifadə edilmiş fikirlər heç bir halda Avropa İttifaqının və ya Avropa Şurasının rəsmi mövqeyini əks etdirə bilməz.

Kommersiya məqsədləri istisna olmaqla, mətnin bütövlüyünün qorunduğu, çıxarışın kontekstdən kənar istifadə edilmədiyi, natamam məlumat vermədiyi və ya mətnin xarakteri, əhatə dairəsi və ya

məzmunu ilə bağlı oxucunu yanlış yönləndirmədiyi hallarda çıxarışların (500 sözə qədər) təkrar nəşrinə icazə verilir. Mənbə mətni həmişə aşağıdakı kimi bildirilməlidir: “©Avropa Şurası, 2026”.

Sənədin tam və ya bir hissəsinin təkrar nəşri/tərcüməsi ilə bağlı bütün müraciətlər Avropa Şurasının Kommunikasiyalar üzrə Direktorluğuna (F-67075 Strasbourg Cedex və ya publishing@coe.int) ünvanlanmalıdır.

Bu sənədlə bağlı digər yazışmalar Avropa Şurasının Demokratiya və İnsan Ləyaqəti üzrə Baş Direktorluğuna ünvanlanmalıdır.

Demokratiya və İnsan Ləyaqəti üzrə Baş Direktorluq:
Avenue de l’Europe
67075 Strasbourg Cedex FRANCE
E-mail: dpc_pgg@coe.int

Üz qabığının dizaynı və tərtibatı: Sənədlərin və Nəşrlərin İstehsalı Departamenti (SPDP), Avropa Şurası

Foto: Shutterstock

© Avropa Şurası, fevral 2026-cı il. Bütün hüquqlar qorunur. Müəyyən şərtlərlə Avropa İttifaqına lisenziya verilmişdir.

Mündəricat

1. GIRIŞ	**5**
2. GENDER BAXIMINDAN HƏSSAS MƏLUMATLARIN TOPLANMASI PRINSIPLƏRI	**7**
2.1. Məlumatların keyfiyyətliliyi və müqayisəliliyi prinsipi	7
2.2. Çoxsaylı məlumat mənbələri və trianqulyasiya prinsipi	8
2.3. Məlumatların vaxtında və müntəzəm əldə edilməsi prinsipi	8
2.4. İnklüzivlik və ayrı-seçkiliyin olmaması prinsipi	8
2.5. Şəxsi həyatın məxfiliyi, şəxsi məlumatların konfidensiallığı və etik mülahizələr	9
3. TƏŞKILATI ROLLAR VƏ ƏLAQƏLƏNDIRMƏ MEXANIZMLƏRI	**10**
3.1. Məqsəd və əsaslandırma	10
3.2. Müvafiq qurumlar	10
3.3. Əlaqələndirmə mexanizmləri	11
3.4. Protokollar və standartlar	12
3.6. Monitorinq və qiymətləndirmə	14
PRIORITET MƏLUMAT SAHƏLƏRI VƏ GÖSTƏRICILƏR	**15**
SƏLAHIYYƏTLI ORQANLARA ƏSAS TÖVSIYƏLƏR	**18**
A. İdarəetmə və standartlar	18
B. Sistemlər, təhlükəsizlik və potensial	18
C. İştirak və davamlılıq	19

1. Giriş

Bu Rəhbər prinsiplər ədliyyə sektoru qurumları, milli statistika idarələri və digər səlahiyyətli orqanlar üçün Ermənistan, Azərbaycan, Gürcüstan, Moldova Respublikası və Ukraynada qadınların ədalət mühakiməsinə çıxışına dair gender baxımından həssas məlumatların hazırlanması, toplanması, idarə olunması və istifadəsi üzrə praktik yol xəritəsi təşkil edir. Onlar 2024 və 2025-ci illərdə hər bir Şərq Tərəfdaşlığı ölkəsində milli məsləhətçilər tərəfindən aparılmış qiymətləndirmələr nəticəsində müəyyən edilmiş regional boşluqlara və çağırışlara cavab verir və Yaxşı İdarəçilik üçün Tərəfdaşlıq proqramının bir hissəsi olan "Qadınların ədalət mühakiməsinə çıxışı: Avropa Şurasının gender bərabərliyi və qadınlara qarşı zorakılıq əleyhinə mübarizə standartlarının həyata keçirilməsi" təşəbbüsü çərçivəsində hazırlanmışdır.[1] Rəhbər prinsiplər "Ədalət mühakiməsinə çıxış imkanının ölçülməsi, o cümlədən qadınların üzləşdiyi konkret çağırışlar" çərçivə sənədinə ("BMT-Qadınlar" strukturu/Avropa Şurası, 2016) əsaslanır[2].

Bu Rəhbər prinsiplərin şamil edildiyi qurumlar aşağıdakılardan ibarətdir, lakin onlarla məhdudlaşmır:

- Ədliyyə sektoru qurumları (məhkəmələr, prokurorluq və polis orqanları, hüquqi yardım göstərən subyektlər)
- Milli statistika idarələri
- Ədliyyə nazirlikləri və əlaqəli qurumlar
- Ombudsman təsisatları, milli insan hüquqları təsisatları (MİHT-lər) və bərabərlik orqanları
- Hüquqi yardım və monitorinq fəaliyyəti ilə məşğul olan vətəndaş cəmiyyəti təşkilatları

Bu sənədin hazırlanmasında istinad edilmiş standartlara aşağıdakılar daxildir: Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Konvensiya (CEDAW), xüsusən qadınların ədalət mühakiməsinə çıxışının təmin olunmasına dair hərtərəfli təlimatları özündə əks etdirən 33 saylı Ümumi Tövsiyə;

1. Milli qiymətləndirmələr ictimaiyyət üçün açıq olmayan işçi sənədlərdir.
2. "Ədalət mühakiməsinə çıxış imkanının ölçülməsi, o cümlədən qadınların üzləşdiyi konkret çağırışlar" çərçivə sənədi ("BMT-Qadınlar" strukturu/Avropa Şurası, 2016)

Qadınlara qarşı zorakılıq və məişət zorakılığının qarşısının alınması və ona qarşı mübarizə haqqında Avropa Şurası Konvensiyası (İstanbul Konvensiyası), hansı ki, onun 11-ci maddəsi bölgülü statistik məlumatların toplanması üzrə öhdəlikləri müəyyən edir; Dayanıqlı İnkişaf Məqsədləri (DİM), xüsusilə gender bərabərliyi ilə bağlı 5-ci DİM və sülhsevər, ədalətli və inklüziv cəmiyyətlərin təşviqi ilə bağlı 16-cı DİM; və ədliyyə sistemlərinin keyfiyyətini, səmərəliliyini və əlçatanlığını qiymətləndirmək üçün Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyası (CEPEJ) tərəfindən hazırlanmış göstəricilər.

2. Gender baxımından həssas məlumatların toplanması prinsipləri

Bu Rəhbər prinsiplər gender baxımından həssas məlumatların toplanmasının kökündə dayanan əsas prinsiplər müəyyən edilmədən tam sayıla bilməz. Bu prinsiplərin əvvəlcədən müəyyənləşdirilməsi sonrakı bütün tövsiyələr üçün möhkəm təməl yaradır və məlumatların toplanması proseslərinin yalnız texniki cəhətdən düzgün olmasını deyil, həm də inklüziv, insan hüquqlarına riayət edilən və qadınların üzləşdiyi spesifik reallıqlara və maneələrə cavab verən proses xarakteri daşımasını təmin edir. Bu istiqamətverici dəyərləri müəyyən etməklə biz müxtəlif qurumlar və kontekstlər üzrə tətbiq oluna biləcək ardıcıl çərçivə yaratmış oluruq ki, bu da qadınların ədalət mühakiməsinə çıxış imkanlarını irəlilətmək üçün etibarlı, müqayisə edilə bilən və əhəmiyyətli faktların əldə edilməsinə imkan verir.

2.1. Məlumatların keyfiyyətliliyi və müqayisəliliyi prinsipi

Ədalət mühakiməsi sektoruna aid məlumatların əhəmiyyət kəsb etməsi, müxtəlif qurumlar arasında və zaman üzrə müqayisə oluna bilməsi üçün standartlaşdırılmış anlayışlar, təsnifatlar və metaməlumatlar qəbul olunmalı və ardıcıl şəkildə tətbiq edilməlidir. Məsələn, “məişət zorakılığı” və ya “hüquqi yardım alan şəxs” kimi terminlər ümumi, hüquqi və əməli baxımdan hamılıqla tanınan məna daşımalıdır. Məlumatların keyfiyyət təminatı protokolları, o cümlədən müntəzəm auditlər, nəzarət yoxlamaları və səhvlərin bildirilməsi və düzəldilməsi üçün mexanizmlər institusional praktikaya daxil edilməlidir. Auditlər və yoxlamalar vacib olsa da, bu proseslər həm də etik prinsiplərə uyğun olmalı, xüsusilə ədalət mühakiməsi sahəsinə aid həssas məlumatların işlənməsi zamanı onlara riayət edilməlidir (məsələn, məxfilik təmin olunmalı, zərər yetirilməməli, məlumatlı razılıq tələbinə əməl olunmalıdır). Bu tədbirlər təkcə məlumatların etibarlılığını artırmır, həm də siyasətçilərdən tutmuş ictimaiyyətə qədər bu məlumatlardan istifadə edənlər arasında inam yaradır.

2.2. Çoxsaylı məlumat mənbələri və trianqulyasiya prinsipi

Qadınların ədalət mühakiməsinə çıxış imkanlarını tam anlamaq üçün təkcə bir məlumat mənbəyinə əsaslanmaq olmaz. Trianqulyasiya (yəni bir neçə məlumat mənbəyinin kombinə edilməsi) məlumatların etibarlılığını gücləndirir və bilgilərdəki boşluqları doldurur. Bu, məhkəmələrdən, polis orqanlarından, prokurorluq xidmətlərindən və hüquqi yardım göstərən subyektlərdən daxil olan inzibati məlumatlarla həyat təcrübələrini və kontekstual incəlikləri əks etdirən sorğu nəticələrinin, hədəf qruplarının rəylərinin və keyfiyyətli müsahibələrin inteqrasiyasını nəzərdə tutur. Vətəndaş cəmiyyəti təşkilatları və akademik tərəfdaşlar həm məlumat təqdim edənlər, həm də rəsmi statistikanın müstəqil təsdiqləyiciləri kimi çıxış edərək bu prosesdə mühüm rol oynayırlar ki, bu da rəqəmlərin reallığa əsaslanmasını və müxtəlif baxış bucaqlarını əks etdirməsini təmin edir. Milli insan hüquqları təsisatları (MİHT-lər) və ombudsman təsisatları da məlumat təqdim edənlər (şikayətlərin araşdırılması, işlərin monitorinqi, tematik hesabatlar vasitəsilə) və ədalət mühakiməsi sektoruna dair məlumatların müstəqil təsdiqləyiciləri kimi rol oynayaraq vətəndaş cəmiyyəti təşkilatlarının (VCT-lər) və akademik dairələrin töhfələrini tamamlayırlar.

2.3. Məlumatların vaxtında və müntəzəm əldə edilməsi prinsipi

Məlumatlar onların siyasət və proqramlara dair qərarların qəbulu üçün aktual qalması məqsədilə müntəzəm şəkildə toplanmalı və yenilənməlidir. Məlumatların toplanması dövrlərinin dəqiq müəyyənləşdirilməsi (məsələn, işlərin icraatdan çıxarılma faizi, hüquqi məlumatlılıq səviyyəsi və ədalət mühakiməsi institutlarına etimad kimi əsas göstəricilər üzrə illik və ya ikiillik hesabatlar) zaman keçdikcə məlumatların davamlılığının və tendensiyalarının təhlilini təmin edir. Polis orqanlarında, məhkəmələrdə və hüquqi yardım ofislərində inzibati reyestrlər razılaşdırılmış minimal dövriliklə yenilənməlidir ki, cari məlumatlara vaxtında çıxış əldə etmək mümkün olsun və köhnəlmiş və ya natamam məlumat dəstlərinin strateji qərarları yönləndirməsi riski azalsın.

2.4. İnklüzivlik və ayrı-seçkiliyin olmaması prinsipi

Gender baxımından həssas məlumatların toplanması zamanı inklüzivlik və ayrı-seçkiliyin olmaması prinsipi rəhbər tutulmalıdır ki, faktoloji bazada bütün müvafiq əhali qrupları təmsil olunsun. Bu, məlumatların cinsiyyət, gender, yaş, sosial-iqtisadi status, coğrafi məkan, əlillik statusuna görə və ədalət mühakiməsinə çıxışı formalaşdıran digər kəsişən amillərə görə sistematik bölgüsünü tələb edir. Məsələn, qaraçı qadınlar, vətəndaşlığı olmayan şəxslər, ahıl qadınlar və

ya miqrantlar. Məlumatların təcrid durumuna salınan və xidmətlərdən kənarda qalan qrupların yaşadığı təcrübələri əks etdirməsinə xüsusi diqqət yetirilməlidir. Buraya kənd yerlərində və ya ucqar ərazilərdə yaşayanlar, etnik və dil azlıqları, LGBTI qrupuna mənsub şəxslər və əlilliyi olan insanlar daxildir. Bu cür detallılıq olmadıqda mühüm maneələr və bərabərsizliklər gizli qalır ki, bu da bütün qadınların və qızların ehtiyaclarını qarşılayan siyasət və tədbirlərin hazırlanması imkanlarını zəiflədir. Məlumat toplayanlar həmçinin bir-biri ilə kəsişən bərabərsizlikləri sistemli şəkildə nəzərə almalı, üst-üstə düşən və potensial olaraq bir-birini gücləndirən maneələri daha yaxşı əks etdirməlidirlər.

2.5. Şəxsi həyatın məxfiliyi, şəxsi məlumatların konfidensiallığı və etik mülahizələr

Gender baxımından bütün həssas məlumatların toplanması məxfilik, konfidensiallıq prinsiplərinə və etik təminatlara ciddi riayət edilməsini tələb edir və gender əsaslı zorakılıq halları kimi həssas məsələlər üzrə işləyərkən bu xüsusilə tələb olunur. Bu, şəxslərin identikləşdirilməsinin qarşısını almaq və zərər və ya damğalanma risklərini azaltmaq üçün şəxsi məlumatların anonimləşdirilməsini və ya ümumiləşdirilməsini nəzərdə tutur. Məlumat toplayanlar və məlumatları saxlayanlar məlumatların qorunmasına dair milli qanunlara, həmçinin beynəlxalq insan hüquqları standartlarına əməl etməli, zəruri hallarda məlumatların açıqlanması üçün məlumatlı razılıq alınmasını təmin etməli və məlumatlarda təmsil olunmuş bütün şəxslərin ləyaqətini, təhlükəsizliyini və hüquqlarını prioritetləşdirən qurban mərkəzli yanaşmanı tətbiq etməlidirlər.

3. Təşkilati rollar və əlaqələndirmə mexanizmləri

3.1. Məqsəd və əsaslandırma

Güclü təşkilati rollar və əlaqələndirmə mexanizmləri ədalət mühakiməsi sahəsi üzrə gender baxımından həssas məlumatların uzlaşdırılmış, ardıcıl və davamlı şəkildə toplanmasının əsasını təşkil edir. Təsisatların qarşılıqlı əlaqəli fəaliyyəti üçün dəqiq müəyyən edilmiş struktur olmadıqda, məlumatlar parçalanmış, natamam ola və onların zaman üzrə və ya qurumlar arasında müqayisəsi çətin ola bilər. Bir çox hallarda mandatların təkrarlanması və məlumat sistemlərinin uzlaşdırılmaması fəaliyyətlərin təkrarlanmasına, əhatəlilikdə boşluqlara və anlayışlarda və ya kodlaşdırmada uyğunsuzluqlara səbəb olur ki, bu da öz növbəsində siyasət üçün aktual və etibarlı faktoloji bazanı zəiflədir.

İnteqrasiya olunmuş əlaqələndirmə strukturu ədalət mühakiməsi zəncirinin hər bir hissəsinin (məsələn, məhkəmələr, polis, prokurorluq orqanları, hüquqi yardım göstərən subyektlər, statistika qurumları və gender bərabərliyi orqanları) öz rolunu anlamasını və ümumi göstəricilər toplusuna sistemli şəkildə töhfə verməsini təmin edir. Əlaqələndirmə mexanizmləri məlumat standartlarının sadələşdirilməsi, vəzifələrin dəqiqləşdirilməsi və müntəzəm mübadilə kanallarının yaradılması sayəsində səmərəliliyi artırır, lüzumsuz təkrarlanmaları azaldır və qurumlar arasında etimadı möhkəmləndirir.

Bu mexanizmlər ədalət mühakiməsi sahəsində cinsiyyət amili üzrə bölgüsü aparılmış etibarlı, vaxtında təqdim edilən və müqayisə oluna bilən məlumatların əldə edilməsinə imkan yarada bilər ki, bu da siyasətçilərin və maraqlı tərəflərin qadınların ədalət mühakiməsinə çıxış əldə etməkdə üzləşdikləri konkret maneələri aradan qaldırmağa yönələn, faktlara əsaslanan müdaxilə tədbirləri hazırlamaq potensialını gücləndirmiş olar..

3.2. Müvafiq qurumlar

Effektiv koordinasiya sisteminin qurulmasında ilk addım ədalət mühakiməsi sahəsinə aid məlumatların toplanması, saxlanması və istifadəsi ilə məşğul olan bütün qurumların əhatəli siyahısını hazırlamaqdır. Siyahının sxematik tərtibi məlumatların istehsalçılarının, saxlayıcılarının və istifadəçilərinin tam mənzərəsini anlamağa, həmçinin uzlaşdırma, inteqrasiya və əməkdaşlıq imkanlarını müəyyənləşdirməyə kömək edə bilər.

Bu sxem bütün ədalət mühakiməsi zəncirini və əlaqədar maraqlı tərəfləri, o cümlədən aşağıdakıları əhatə etməlidir:

- Ali Məhkəmə, apellyasiya məhkəmələri, birinci instansiya məhkəmələri və məhkəmə şuraları kimi məhkəmə orqanları.
- Polis qüvvələri, prokurorluq orqanları və istintaq komitələri daxil olmaqla hüquq-mühafizə orqanları.
- Dövlət vəkillik ofisləri, vəkillər kollegiyaları və ödənişsiz və ya aşağı qiymətlə hüquqi xidmətlər göstərən qeyri-hökumət təşkilatları kimi hüquqi yardım təminatçıları (həm dövlət tərəfindən maliyyələşdirilən, həm də müstəqil).
- Mərkəzi və regional səviyyədə fəaliyyət göstərən, rəsmi məlumatların konsolidasiyası və dərc olunmasında əsas rol oynayan milli statistika idarələri.
- Gender bərabərliyi, məişət zorakılığının qarşısının alınması və uşaq hüquqlarının müdafiəsi kimi konkret məsələlərlə məşğul olmaq mandatına malik ixtisaslaşdırılmış qurumlar.
- Zorakılıq qurbanı olan qadınlar üçün çox zaman ilk təmas nöqtəsi olan və həmçinin qeydə alınmayan halların nə dərəcədə yayıldığını anlamaq üçün dəyərli inzibati məlumatlar təqdim edən səhiyyə mütəxəssisləri və sosial təminat xidmətləri.
- Ədalət mühakiməsi sahəsinin monitorinqi, təbliğat-təşviqat və tədqiqat fəaliyyəti ilə məşğul olan vətəndaş cəmiyyəti təşkilatları və akademik qurumlar.

Bu proses hər bir qurumun mandatını, topladığı məlumatların növlərini, hesabatlılıq öhdəliklərini və digər qurumlarla rəsmi və ya qeyri-rəsmi məlumat mübadiləsi əlaqələrini təsvir edən ətraflı institusional sxem ərsəyə gətirə bilər. Belə bir sxem yalnız rolların və vəzifələrin dəqiqləşdirilməsi ilə məhdudlaşmır, həm də məlumat axınlarında təkrarlanmaları, boşluqları və potensial sinerji imkanlarını üzə çıxarır.

3.3. Əlaqələndirmə mexanizmləri

Əlaqələndirmə mexanizmlərinin əsas məqsədi ədalət mühakiməsi sistemi boyunca məlumat axınının effektivliyini təmin etmək, fəaliyyətlərin təkrarlanmasının qarşısını almaq və inzibati məlumat bazaları arasında qarşılıqlı yoxlamanı mümkün etməklə dəqiqlik və tamlığı artırmaqdır. Yaxşı hazırlanmış əlaqələndirmə strukturları ədalət mühakiməsi sahəsində gender baxımından həssas məlumatların uzlaşdırılmış və inteqrasiyalı sistemi üçün möhkəm təməl yaradır.

Əlaqələndirmə sistemi həm qurumlararası işçi qrupları, həm də daimi koordinasiya bölmələrindən ibarət olmalıdır. Qurumlararası işçi qrupları məhkəmə sistemi, milli statistika idarələri, polis, prokurorluq orqanları və hüquqi yardım təminatçılarını bir araya gətirərək dialoq, problemlərin birgə həlli və metodologiyaların və prioritetlərin uyğunlaşdırılması üçün platforma rolunu oynayırlar. Bu qrupların fəaliyyətini tamamlayan, əsas nazirliklərdə və ya statistika qurumlarında təşkil edilən daimi

koordinasiya bölmələri ədalət mühakiməsi ilə bağlı gender məlumatlarına davamlı nəzarəti təmin edir. Bu bölmələr razılaşmaların icrasını izləyir, institusional yaddaşı mühafizə edir və vahid, çevik məlumat sistemini saxlamaq üçün zəruri gündəlik koordinasiya işlərini idarə edir. Bundan əlavə, digər faydalanan tərəflərin (məsələn, qadın təşkilatları, qurbanların şəbəkələri və ya daha geniş vətəndaş cəmiyyətinin nümayəndələri) iştirakı hesabatlılığı gücləndirə, məlumatların real təcrübələri əks etdirməsini təmin edə və sistemə inamı artıra bilər.

Əlaqələndirmə mexanizmlərinin funksiyalarına illik və ya ikiillik məlumat toplama fəaliyyətlərinin birgə planlaşdırılması daxildir ki, bu da bütün iştirakçı qurumlar üçün vaxt çərçivələrinin, resursların və vəzifələrin aydın şəkildə müəyyən edilməsini təmin edir. Həmçinin ümumi prioritetlər və əsas göstəricilər üzrə razılığa gəlmək bu mexanizmlərin tərkib hissəsidir ki, bu da ümumi konsentrasiyanı qorumağa və müxtəlif qurumlar arasında məlumat dəstlərinin müqayisəsinin mümkünlüyünü təmin etməyə kömək edir. Bundan əlavə, bu mexanizmlər sistemlər arasında təhlükəsiz, səmərəli və avtomatlaşdırılmış məlumat mübadiləsini mümkün edən məlumat paylaşımı razılaşmalarının və qarşılıqlı işlək standartların hazırlanmasını asanlaşdırır ki, bu da ədalət mühakiməsi sahəsinə aid gender baxımından həssas məlumatların ümumi keyfiyyətini və əlçatanlığını artırır. Əlaqələndirmə orqanları hər rüb toplaşaraq işlərin gedişatını nəzərdən keçirməli, əməliyyat məsələlərini həll etməli və qarşıdakı fəaliyyətləri planlaşdırmalıdırlar. Bundan əlavə, sistemin ümumi fəaliyyətini qiymətləndirmək, çıxarılmış dərsləri müəyyənləşdirmək və növbəti il üçün prioritetləri tənzimləmək məqsədilə illik strateji icmal sessiyası keçirilməlidir.

Effektiv əlaqələndirmə mexanizmləri ədalət mühakiməsi sahəsində məlumatların etibarlılığını, müstəqilliyini və etik istifadəsini təmin etmək üçün risklərin idarə edilməsi üzrə etibarlı sistem vasitəsilə dəstəklənməlidir. Bu sahədəki risklər texniki zəifliklərlə məhdudlaşmır, həm də məlumatların bütövlüyünü və ictimai etimadı sarsıda biləcək institusional və siyasi aspektləri əhatə edir. Əsas risklərə bunlar daxildir: məlumatların siyasi manipulyasiyası – bu halda statistika təsirlərə məruz qalır və ya yalnız müsbət nəticələri göstərmək üçün selektiv şəkildə açıqlanır; selektiv və ya qeyri-ardıcıl hesabatlılıq – bu halda mənfi nəticələr və ya gender əsaslı fərqlər göstərilmir; və məlumatlardan faktlara söykənən islahatları əsaslandırmaq üçün deyil, əvvəlcədən müəyyən edilmiş siyasət qərarlarına haqq qazandırmaq üçün istifadə edilməsi. Belə təcrübələr ictimai təsəvvürləri təhrif edə, qurumlara inamı sarsıda və hesabatlılığı zəiflədə bilər.

3.4. Protokollar və standartlar

Aydın və ardıcıl protokollar və standartlar ədalət mühakiməsi sahəsinə aid gender baxımından həssas məlumatların qurumlar arasında uzlaşdırıla, müqayisə edilə və istifadə oluna bilən olmasını təmin etmək üçün vacibdir. Bu iş vahid şablonların və kodlaşdırma sistemlərinin qəbulundan başlayır və həmçinin “məişət zorakılığı işi”, “hüquqi yardım alan şəxs” və “mühafizə orderinin verilməsi” kimi əsas terminlər üçün ümumi anlayışların müəyyənləşdirilməsini özündə ehtiva edir. Bundan

əlavə, bütün iştirakçılar cinsiyyət, yaş, coğrafi məkan, əlillik statusu və qanunla icazə verilən hallarda etnik mənsubiyyət kimi minimal bölgü vahidləri üzrə razılığa gəlməlidirlər ki, məlumatlar müxtəlif təcrübələri və qarşıya çıxan maneələri əks etdirə bilsin. Qadınlara qarşı zorakılıq hallarında isə məlumatlar zorakılığın növünü və hüquqpozanlarla zərərçəkənlər arasındakı münasibəti də əhatə etməlidir.

Bu çərçivə həm də ədalət mühakiməsi sistemlərində gender bərabərliyinin monitorinqi üçün standartlaşdırılmış göstəricilər toplusunu müəyyən etməlidir. Bu göstəricilər Dayanıqlı İnkişaf Məqsədləri (DİM), Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Konvensiya (CEDAW) və İstanbul Konvensiyası kimi beynəlxalq sənədlərdəki öhdəliklərə uyğunlaşdırılmalıdır.

Məlumatların maneəsiz mübadiləsini və inteqrasiyasını təmin etmək üçün bütün məlumatlar sistemlər arasında qarşılıqlı əlaqəni asanlaşdıran, maşın tərəfindən oxuna bilən formatlarda (məsələn, XML, CSV) saxlanmalı və ötürülməlidir. Xüsusilə gender əsaslı zorakılıq hallarında həssas məlumatların qorunmasından ötrü belə məlumatların ötürülməsi və saxlanması üçün təhlükəsiz kanallar mövcud olmalıdır.

Ədalət mühakiməsi sisteminin məlumatlarının rəqəmsallaşdırılması kibertəhlükəsizlik və inklüzivlik məsələlərinə xüsusi diqqət tələb edir. Gender əsaslı zorakılıq hallarında toplanan şəxsi məlumatların həssaslığı nəzərə alınaraq, informasiya texnologiyaları vasitəsilə güclü mühafizə tədbirlərinin olması zəruridir. Ən azı sistemlərdə başlanğıcdan sonadək şifrələmə və çoxmərhələli autentifikasiya tətbiq edilməli, məlumatlara giriş "yalnız zəruri məlumatlara daxil olma" prinsipi əsasında məhdudlaşdırılmalı və məlumatların istifadəsini izləmək üçün tarixçədəki qeydlərdən istifadə edilməlidir. Kənar daxilolmalara qarşı testlərin mütəmadi keçirilməsi, əməkdaşlar üçün kibertəhlükəsizlik təlimləri və məlumatların ehtiyat nüsxələrinin təhlükəsiz qaydada saxlanması protokolları məcburi olmalıdır. Eyni zamanda, rəqəmsallaşdırma ərazilər arasında fərqləri və sosial fərqləri dərinləşdirməməlidir: kənd yerlərindəki və uzaq bölgələrdəki ədalət mühakiməsi institutları çox vaxt bağlantı problemləri və məhdud texniki imkanlarla üzləşirlər. Rəqəmsallaşmadan kənarda qalmanın qarşısını almaq üçün hibrid sistemlər (rəqəmsal alətlərin kağız daşıyıcıda və ya oflayn rejimdə məlumat toplanması ilə kombinə edilməsi) bütünlüklə bağlantı təmin edilənə və istifadəçilər üçün təlim keçilənə qədər saxlanmalıdır.

Nəhayət, bütün şablonların, göstəricilərin və texniki standartların rəsmi şəkildə qurumlararası əlaqələndirmə qrupu tərəfindən təsdiqlənməsini təmin edən təsdiqləmə prosesi müəyyən edilməlidir. Bunlar mütəmadi olaraq (məsələn, ən azı hər üç ildən bir) nəzərdən keçirilməli və yenilənməlidir ki, davamlı aktuallıq, dəyişən hüquqi çərçivələrə uyğunluq və qarşıya çıxan məlumat ehtiyaclarına reaksiyalar təmin edilmiş olsun.

İnstitusional potensialın artırılması ədalət mühakiməsi sahəsində gender baxımından həssas məlumatların dəqiq və ardıcıl şəkildə toplanmasını, qeydiyyata alınmasını və təhlil olunmasını təmin etmək üçün vacibdir. Əsas personal üçün illik təlim proqramları təşkil edilməlidir; bunlara məhkəmə katibləri, statistika mütəxəssisləri, məlumatlarla işləyən polis əməkdaşları və hüquqi yardım subyektlərinin inzibatçıları

daxildir. Bu təlimlər gender baxımından həssas məlumatların qeydiyyatı, məlumatların ayrı-ayrı qruplar üzrə bölgüsünə, şəxsi məlumatların konfidensiallığına və şəxsi həyatın məxfiliyinə dair protokollar üçün tələblər (məsələn, statistik məlumatların açıqlanmasına nəzarət standartları) və rəqəmsal məlumat sistemlərindən səmərəli istifadə kimi əsas mövzuları əhatə etməlidir. Tədris prosesi interaktiv öyrənmə üçün əyani seminarların və əlçatanlığı və davamlılığı təmin etmək üçün onlayn modulların kombinasiyasından ibarət olmalıdır.

Bundan əlavə, mürəkkəb sahələri əhatə etmək üçün ixtisaslaşdırılmış təlim modulları, məsələn, gender əsaslı zorakılıqla bağlı məlumatların işlənməsi mövzusunda təlim vəsaiti hazırlanmalıdır. Bu modullar praktik problemləri və onların həlli yollarını önə çəkən iş nümunələrini, həmçinin müvafiq mütəxəssislər üçün texniki dəqiqliyi artırmaq məqsədilə iş fayllarının kodlaşdırılması və təsdiqlənməsi üzrə praktik tapşırıqları özündə ehtiva etməlidir.

Yüksək standartları qorumaq və professional inkişafı təşviq etmək üçün hər bir təlim proqramına qiymətləndirmə və sertifikatlaşdırma daxil edilə bilər. Təlimdən sonrakı qiymətləndirmələr iştirakçıların anlayışlarının və yeni bacarıqları işlərində tətbiq etmək qabiliyyətinin yoxlanılmasına yönələcək. Tələb olunan səriştəlilik standartlarına cavab verən iştirakçılara rəsmi sertifikat verilməlidir ki, bu da onların peşə bacarıqlarının tanınmasını gücləndirəcək və gender baxımından həssas məlumatlarla iş praktikasının keyfiyyətliliyinə institusional sadiqliyi möhkəmləndirəcək.

3.6. Monitorinq və qiymətləndirmə

Davamlı monitorinq və müntəzəm qiymətləndirmə ədalət mühakiməsi sahəsində tətbiq edilən gender baxımından həssas məlumat sistemlərinin keyfiyyətini, uyğunluğunu və aktuallığını qorumaq üçün həyati əhəmiyyət daşıyır. Əlaqələndirmə orqanı hər il institusional mexanizmləri nəzərdən keçirməli, rolların, vəzifələrin və proseslərin praktikada nə dərəcədə səmərəli işlədiyini qiymətləndirməlidir.

İrəliləyişlərin izlənilməsi və təkmilləşdirilməli sahələrin müəyyən edilməsi üçün dəqiq səmərəlilik göstəricilərindən istifadə olunmalıdır. Bunlara razılaşdırılmış şablonlardan və kodlaşdırma sistemlərindən ardıcıl istifadə edən qurumların faizi; tələb olunan kəmiyyətlər üzrə, məsələn, cins, yaş və məkan göstəriciləri üzrə tam bölünməklə təqdim olunan məlumat dəstlərinin faizi; həmçinin məlumatların vaxtında və tam təqdim edilməsinin göstəriciləri aid edilə bilər.

Səmərəli sistem həmçinin məlumat istifadəçiləri (siyasət məsələləri üzrə bölmələr, tədqiqatçılar və vətəndaş cəmiyyəti təşkilatları daxil olmaqla) ilə əks əlaqə mexanizmlərini özündə birləşdirməlidir ki, məlumatların toplanması protokolları dəyişən ehtiyaclara cavab verməkdə davam etsin. Bu əməkdaşlıq göstəricilərin dəqiqləşdirilməsinə, anlayışların yenilənməsinə və metodologiyaların gücləndirilməsinə kömək edir ki, bu da ədalət mühakiməsi sisteminin məlumatlarının etibarlı, aktual olaraq qalmasını və konkret məqsədlərə uyğun olmasını təmin edən fasiləsiz təkmilləşdirmə siklini formalaşdırır.

Prioritet məlumat sahələri və göstəricilər

Prioritet məlumat sahələrinin və göstəricilərin müəyyənləşdirilməsi və razılaşdırılması qadınların ədalət mühakiməsinə çıxışının ən aktual aspektlərinə yönəlmiş məlumat toplama səyləri üçün vacibdir. Bu sahələr həm əlverişli mühiti, həm də ədalət mühakiməsi institutlarının fəaliyyətini, eləcə də ədalət axtarışında olan qadınların yaşadığı təcrübələri və əldə edilən nəticələri ölçmək üçün strukturlaşdırılmış bazanı təmin edir (Çərçivə 1). Prioritetləşdirməni dəstəkləmək üçün 2025-ci ildə milli məsləhətçilərlə birlikdə ayrıca təhlil aparılmışdır.

Çərçivə 1

Əlverişli mühit	Təklif tərəfi	Tələb tərəfi
Əlverişli mühit qadınların ədalət mühakiməsinə çıxışını təmin edən hüquqi baza və siyasətin olmasını nəzərdə tutur. Bura milli qanunvericiliyin CEDAW və İstanbul Konvensiyasına uyğunlaşdırılması, bu sənədlər üzrə öhdəliklərin tam şəkildə daxili qanunvericilikdə əks olunması daxildir. Həmçinin Konstitusiyada və qanunlarda gender bərabərliyinə dair müddəaların mövcudluğu da ayrı-seçkiliyin olmaması və bərabər rəftar üçün rəsmi hüquqi əsas yaradır. Qadınlara qarşı zorakılığın bütün formalarının kriminallaşdırılması mühüm meyar sayılır, çünki bu, zərərçəkmişlərin hüquqi müdafiə vasitələrinə müraciət etmək və müdafiə olunmaq imkanına malik olmasını təmin edir. Bundan əlavə, QHT-lərin strateji məhkəmə çəkişmələri üçün hüquqi statusa malik olması qadınların hüquqlarının məhkəmələr vasitəsilə irəlilədilməsi üçün mühüm mexanizmdir..	Təklif tərəfi qadınların ehtiyaclarını ödəmək üçün ədalət mühakiməsi institutlarının potensialını və reaksiya imkanlarını nəzərdən keçirir. Əsas elementlərə hakimlərin, prokurorların, hüquqi yardım göstərən vəkillərin və polis əməkdaşlarının cinsiyyət üzrə tərkibi daxildir ki, bu da ədalət mühakiməsi prosesinə çıxış imkanına və bu prosesə etimada təsir göstərə bilər. Gender əsaslı zorakılıq üzrə ixtisaslaşmış bölmələrin və məhkəmələrin sayı və coğrafi əhatə dairəsi sistemin gender əsaslı cinayətlərlə mübarizəyə nə dərəcədə hazır olduğunu əks etdirir. Coğrafi əlçatanlıq, yəni ən yaxın məhkəməyə orta məsafə ilə və ya səfər vaxtı ilə ölçülən göstərici ədalət mühakiməsinə bərabər çıxış imkanı üçün həlledici əhəmiyyət daşıyır. Nəhayət, işlərin növləri və iddiaçının cinsiyyəti üzrə bölgü aparılmaqla işlərin həll olunma faizləri və işlərə baxılmasının orta müddəti ədalət mühakiməsinin təmin olunmasında nə dərəcədə səmərəlilik və ədalətlilik olduğu barədə təsəvvür yaradır.	Tələb tərəfi əsas diqqətini qadınların ədalət axtararkən yaşadıqları təcrübələrə, qavrayışlarına və davranışlarına yönəldir. Adətən sorğular vasitəsilə ölçülən hüquqlar barədə məlumatlılıq səviyyəsi həmin hüquqların tələb olunması üçün ilkin şərtdir. Qadınların üzləşdiyi maneələri (xərclər, damğalanma və fiziki məsafə daxil olmaqla) anlamaq islahatların harada zəruri olduğunu müəyyənləşdirməyə kömək edir. Gender əsaslı zorakılıq işlərində bu cür işlərin icraatdan çıxarılma göstəriciləri və ərizələrin geri götürülməsinin sənədləşdirilmiş səbəbləri müdafiə, istintaq və məhkəmə təqibi proseslərindəki zəiflikləri üzə çıxara bilər. Nəhayət, məhkəmələrə, polis orqanlarına və hüquqi yardım xidmətlərinə olan etimadın ictimai rəy sorğuları vasitəsilə öyrənilən səviyyəsi ədalət mühakiməsi sisteminin legitimliyinin və onun qadınlar arasında qəbul edilən ədalətliliyinin mühüm ölçü meyarını təşkil edir.

Göstəricilərin ölçülməsində prioritetləri müəyyənləşdirmək məqsədilə hesabatdan istifadə etmək üçün ilk addım sistemdəki bütün göstəriciləri həm milli, həm də beynəlxalq öhdəliklərlə müqayisə etmək ola bilər. Bu, hansı göstəricilərin birbaşa ölkədaxili ədalət mühakiməsi islahatının məqsədlərinə, həmçinin 5 və 16-cı Dayanıqlı İnkişaf Məqsədlərində, CEDAW-da və İstanbul Konvensiyasında nəzərdə tutulmuş hesabat tələblərinə töhfə verdiyini müəyyənləşdirmək deməkdir. Bir neçə məqsədə xidmət edən göstəricilərə daha yüksək prioritet verilməlidir, çünki onlar səmərəliliyi artırır və eyni zamanda bir neçə öhdəliyin icrasına təsir göstərir.

Növbəti mərhələdə hər bir göstərici üzrə mövcud məlumatların əlçatanlığını qiymətləndirmək vacibdir. Hesabatda təqdim olunan institusional sxemə və məlumat mənbələrinin təsvirinə əsaslanaraq göstəriciləri üç kateqoriyaya bölmək mümkündür: məlumatların tam mövcud olduğu və standartlaşdırıldığı göstəricilər; məlumatların qismən mövcud olduğu, lakin təkmilləşdirilməsinə ehtiyac duyulan göstəricilər; və hazırda heç bir məlumatın toplanmadığı göstəricilər. Bu kateqoriyalaşdırma ilk qrupdakı göstəricilərdən başlamaqla erkən nəticələr əldə etməyə imkan verir, eyni zamanda ikinci qrupun göstəricilərinin gücləndirilməsi üçün qısamüddətli investisiyanın planlaşdırılmasına şərait yaradır.

Siyasət qərarlarının təxirəsalınmazlığı həm də ölçmələrin ardıcıllığını müəyyənləşdirməyə istiqamət verməlidir. Fəal siyasət müzakirələri, qanunvericilik islahatları və ya ictimaiyyətin narahatlığının artdığı sahələrlə bağlı göstəricilər növbədə önə çəkilməlidir. Məsələn, əgər gender əsaslı zorakılıqla bağlı qanunvericilik nəzərdən keçirilirsə, kriminallaşdırma, işlərin icraatdan çıxarılma faizi və mühafizə orderləri üzrə göstəricilərə üstünlük vermək məntiqli olardı. Hesabatda yer alan ölkəyə xas kontekst və qabaqcıl təcrübə nümunələri göstəricilərin seçilməsini bu real siyasət imkanları ilə uyğunlaşdırmağa kömək edə bilər.

İnstitusional hazırlıq digər bir mühüm amildir. Hesabatın institusional mexanizmlərə aid bölməsi hansı qurumların hər bir göstəricini toplamaq üçün mandatlara, sistemlərə və imkanlara malik olduğunu müəyyənləşdirməyə imkan verir. Yetərincə hazırlıqlı qurumlar tərəfindən minimal qurumlararası koordinasiya ilə reallaşdırıla bilən göstəricilərə genişmiqyaslı yeni əməkdaşlıq və ya infrastruktur tələb edən göstəricilərlə müqayisədə prioritet verilməlidir.

Reallaşdırmanın mürəkkəbliyi və dəyəri də nəzərə alınmalıdır. Mövcud inzibati sistemlərdən istifadə etməklə ölçülə bilən göstəricilər, məsələn, hakimlər korpusunun cinsiyyət üzrə tərkibinin göstəriciləri ilk növbədə tətbiq olunmalıdır. Daha çox resurs tələb edən göstəricilər, məsələn, sorğular aparılmasını və ya mürəkkəb qurumlararası məlumat inteqrasiyasını tələb edənlər sonrakı mərhələlər üçün planlaşdırıla bilər. Hesabatda yer alan hər bir məlumat sahəsi üzrə infrastruktur ehtiyaclarına dair qeydlər bu qərarların qəbulunda istifadə oluna bilər.

Mərhələli tətbiqetmə ölçmənin idarəolunan şəkildə həyata keçirilməsini təmin edir. İlkin mərhələ sürətlə toplanması mümkün olan inzibati məlumatlara yönəlməli, daha sonra orta səviyyəli sistem yeniləmələri tələb edən göstəricilər, sonda isə tamamilə yeni məlumat toplama sistemləri və ya sorğular tələb edən göstəricilər

tətbiq olunmalıdır. Hesabatdakı yol xəritəsi nümunələri hər bir mərhələdə nələrə nail olmağın mümkün olduğunu göstərir.

Nəhayət, ölçmənin tətbiqini hesabat dövrləri ilə əlaqələndirmək onun strateji dəyərini artıra bilər. Milli və beynəlxalq hesabatlılıq müddətləri göstəricilərin elə vaxtda tətbiq edilməsinə imkan verir ki, mühüm əhəmiyyət daşıyan nailiyyətlər nəticələrdə öz əksini tapmış olsun. Bu təkcə görülən işin əyaniliyini artırmır, həm də siyasi və institusional dəstəyin təmin edilməsinə kömək edir. Hesabatın monitorinq və davamlı təkmilləşdirmə bölməsindən illik yoxlamalar üçün istifadə oluna bilər; siyasət baxımından az əhəmiyyətli olan və ya davamlı məlumat problemləri yaradan göstəricilərin tətbiqi dayandırıla və ya təxirə salına, zaman keçdikcə tətbiqi daha real olan göstəricilər isə irəli çəkilə bilər.

Səlahiyyətli orqanlara əsas tövsiyələr

Ədalət mühakiməsi sahəsinə aid gender baxımından həssas məlumatların toplanması, təhlili və istifadəsini gücləndirmək üçün səlahiyyətli orqanlar aşağıdakı tədbirləri nəzərdən keçirməlidirlər:

A. İdarəetmə və standartlar

1. Ədalət mühakiməsi sahəsində "BMT-Qadınlar" strukturunun/Avropa Şurasının göstəricilərinə uyğun olan gender baxımından həssas milli məlumatlar sistemini qəbul edin. Bu, qurumlar arasında uzlaşmanı, zaman üzrə müqayisə imkanını və beynəlxalq standartlara uyğunluğu təmin edəcək.

2. Ədalət mühakiməsi sahəsinə aid bütün statistika üçün cinsiyyət üzrə və interseksional bərabərsizlik göstəriciləri üçün aktuallıq kəsb edən digər kateqoriyalar (məsələn, yaş, əlillik, etnik mənsubiyyət, coğrafi məkan, sosial-iqtisadi status) üzrə ayrı-ayrı məlumatların toplanmasını və təqdim edilməsini məcburi qaydada tətbiq edin. Bu tələb müvafiq qanunvericilikdə, normativ hüquqi aktlarda və ya nazirlik sərəncamlarında əks olunmalıdır ki, bütün ədliyyə sektoru qurumlarında onun yerinə yetirilməsi təmin edilsin.

3. Ədalət mühakiməsi sahəsinə aid bütün məlumat sistemlərində etik standartları və məlumatların qorunması standartlarını hazırlayın və tətbiq edin. Bunlar həssas məlumatların anonimləşdirilməsini, qurban mərkəzli konfidensiallıq protokollarını, həmçinin razılığa və məlumatların saxlanmasına dair aydın qaydaları özündə ehtiva etməlidir ki, prosesdə iştirak edən bütün şəxslərin şəxsi həyatının məxfiliyi və ləyaqəti qorunsun.

4. Ədalət mühakiməsi sahəsinə aid gender göstəricilərini təqdim edən illik ictimai hesabatların dərc edilməsi və/və ya informasiya lövhələrinin təqdim olunması vasitəsilə şəffaflığı təmin edin. Belə hesabatlar siyasətçilər, tədqiqatçılar və ictimaiyyət üçün əlçatan olmalı, həm kəmiyyət, həm də keyfiyyət məlumatlarını özündə ehtiva etməlidir.

B. Sistemlər, təhlükəsizlik və potensial

5. Məhkəmələri, polis və prokurorluq orqanlarını və hüquqi yardım göstərən subyektləri əlaqələndirən təhlükəsiz və inteqrasiya olunmuş rəqəmsal sistemləri tətbiq edin. Sistemlərin qarşılıqlı funksionallığı kibertəhlükəsizlik tədbirləri (məsələn, şifrələmə, istifadəçi identifikasiyası, girişə nəzarət və əməliyyatların tarixçədə

qeydə alınması) ilə tamamlanmalıdır ki, məlumatların sızmasının və sui-istifadə edilməsinin, xüsusilə də gender əsaslı zorakılıq hallarında, qarşısı alınsın.

6. Məlumat toplayan əməkdaşlar üçün yetərincə maliyyələşdirilən müntəzəm təlimlər keçirilməsini təmin edin. Təlimlərdə əsas diqqət gender baxımından həssas məlumatların qeydiyyatı, məlumatların bölgüsünə dair tələblər, konfidensiallıq protokolları və rəqəmsal sistemlərin istifadəsi mövzularına yönəlməlidir.

7. Əldə edilmiş bilgilərin qorunub saxlanmasını və institusional fəaliyyətlərin davamlılığını gücləndirmək üçün prosedurlar və metodologiyalar aydın şəkildə sənədləşdirilməli, təcrübəli və yeni əməkdaşlar arasında mentorluq mexanizmləri qurulmalı, məlumatlarla iş çərçivəsində bütün əsas funksiyalar üçün ehtiyat koordinatorlar təyin edilməlidir. Bu tədbirlər, hətta əməkdaşların vəzifələri dəyişdikdə və ya onlar qurumlarını tərk etdikdə belə, bilgilərin ardıcıllığını qorumağa kömək edir.

8. Ədliyyə sektoru iştirakçıları arasında rəsmi məlumat mübadiləsi razılaşmalarının əldə edilməsini təmin edin. Bu razılaşmalar məlumat mübadiləsinin əhatə dairəsini, formatını, tezliyini və təhlükəsizlik tədbirlərini müəyyən etməlidir ki, bu da əməkdaşlığın asanlaşdırılmasını və eyni zamanda konfidensiallığın qorunmasını təmin etmiş olar.

9. Gender yönümlü büdcə tərtibini tətbiq edərək məlumat sistemlərinin yenilənməsi, təhlil və hesabatlılıq üçün kifayət qədər resurs ayırın. Maliyyələşdirmə xüsusilə ədalət mühakiməsi sahəsinə aid gender baxımından həssas məlumatların keyfiyyətini, əhatə dairəsini və əlçatanlığını yaxşılaşdıran fəaliyyətləri dəstəkləməlidir.

C. İştirak və davamlılıq

10. Ədalət mühakiməsi sistemi ilə təmasda olanların baxışlarını əks etdirmək üçün mütəmadi olaraq istifadəçi sorğuları keçirin. Nəticələrdən xidmətlərin göstərilməsi, maarifləndirmə strategiyalarının hazırlanması və faktlara əsaslanan islahatların formalaşdırılması üçün istifadə edin.

11. Vətəndaş cəmiyyəti təşkilatlarını və akademik qurumları məlumatların toplanması metodologiyalarının hazırlanması, sınaqdan keçirilməsi və yenidən nəzərdən keçirilməsinə cəlb edin. Bu inklüziv yanaşma göstəricilərin aktual, etibarlı olmasını və qarşıya çıxan ehtiyaclara cavab verməsini təmin etməyə kömək edir.

12. Milli göstəricilər toplusunu mütəmadi olaraq yenidən nəzərdən keçirin ki, onlar ədalət mühakiməsinin yeni çağırışlarını, qanunvericilik dəyişikliklərini və dəyişən beynəlxalq öhdəlikləri əks etdirsin. Daimi yeniləmələr sistemin aktual qalmasını və zaman keçdikcə baş verən dəyişikliklərə reaksiyasını təmin edəcək.

Bu hesabatda Şərq Tərəfdaşlığı regionunda qadınların ədalət mühakiməsinə çıxışına dair gender baxımından həssas məlumatların toplanması və istifadəsinin yaxşılaşdırılması üçün praktik, faktlara əsaslanan tövsiyələr təqdim edilir. Hesabat "BMT-Qadınlar" strukturunun və Avropa Şurasının "Ədalət mühakiməsinə çıxış imkanının olçülməsinə dair çərçivə" sənədinə əsaslanaraq beynəlxalq standartları ədliyyə qurumları, statistika idarələri və əlaqədar dövlət orqanları üçün əməli tövsiyələrə çevirir. Məlumatların toplanmasına dair rəhbər prinsiplər məlumatların yüksək keyfiyyətlə, etik və inklüziv tərzdə toplanmasının əsas prinsiplərini müəyyən edir, xüsusilə məlumatların ayrı-ayrı qruplar üzrə bölgüsünə, müqayisəliliyinə, qurumlararası əlaqələndirməyə və həssas məlumatların qorunmasına diqqət yetirir. Onlar əlverişli mühit, ədalət mühakiməsi sahəsinə aid xidmətlər, proseslər və resurslar və qadınların ədalət axtarışı zamanı yaşadığı təcrübələr, o cümlədən qadınlara qarşı zorakılıq halları kimi prioritet məlumat sahələrini və göstəriciləri müəyyənləşdirir. Ermənistan, Azərbaycan, Gürcüstan, Moldova Respublikası və Ukraynadan olan ekspertlərin məlumatlarına əsaslanaraq, hesabat ümumi boşluqları və qabaqcıl təcrübələri işıqlandırır, institusional potensialın, məlumatların qarşılıqlı funksionallığının və hesabatlılığın gücləndirilməsi üçün konkret addımlar təklif edir. O, islahatları məlumatlı şəkildə aparmaq, irəliləyişi izləmək və Avropa və beynəlxalq insan hüquqları standartlarına uyğun olaraq qadınların ədalət mühakiməsinə bərabər çıxış imkanını irəlilətmək üçün etibarlı məlumatlar əldə etməyə çalışan siyasətçilər, ədliyyə mütəxəssisləri, statistiklər və vətəndaş cəmiyyəti subyektləri üçün praktik resurs kimi nəzərdə tutulub.

PREMS 149626

AZE

Avropa İttifaqına üzv dövlətlər öz təcrübələrini, resurslarını və müqəddəratlarını bir-biri ilə bağlamaq qərarına gəlmişlər. Onlar birlikdə, mədəniyyət müxtəlifliyini, tolerantlığı və fərdi azadlıqları qorumaqla sabitlik, demokratiya və dayanıqlı inkişaf zonası yaratmışlar. Avropa İttifaqı öz nailiyyətlərini və dəyərlərini öz hüdudlarından kənarda olan ölkələr və xalqlarla bölüşmək əqidəsinə sadiqdir.

www.europa.eu

Avropa Şurası qitənin insan hüquqlarını müdafiə edən aparıcı təşkilatıdır. Avropa İttifaqına üzv olan bütün dövlətlər daxil olmaqla, təşkilat 46 üzv dövlətdən ibarətdir. Avropa Şurasının bütün üzv dövlətləri insan hüquqları, demokratiya və qanunun aliliyini qorumağı nəzərdə tutan Avropa İnsan Hüquqları Konvensiyasını imzalamışdır. Avropa İnsan Hüquqları Məhkəməsi Konvensiyanın üzv dövlətlərdə tətbiq edilməsinə nəzarət edir.

www.coe.int

Avropa İttifaqı tərəfindən birgə maliyyələşdirilir

AVROPA İTTİFAQI

COUNCIL OF EUROPE

CONSEIL DE L'EUROPE

Avropa Şurası tərəfindən birgə maliyyələşdirilir və icra edilir